## PEZEŞKİANIN AZƏRBAYCANÇI POPULİZMİ

Bu yaxınlarda İranın yeni seçilmiş prezidenti bir bəyanat verdi. Bunu müsahibə də hesab etmək olar. Ancaq nə hesab edirsinizsə edin, məqsəd bir mətləbi Azərbaycan ictimaiyyətinə çatdırmaq idi. Allah Cavad İsmayılın babalarına rəhmət eləsin. ”Təhsil almadıgımız üçün cümləni düzgün qura bilmirik...” deyəndə dinləyicilər təəccüb edirdilər. İndi görürük ki, Azərbaycanlı olan prezident bir şeylər demək istəyir, ancaq düzgün cümlə qurub deyə bilmir, deyə bildiklərini də deməyə qorxur. Odur ki, Pezeşkiyanın dediklərini anlaşıqlı dilə “tərcümə” edək və deyə bilmədiklərini də biz deyək. Pezeşkiyan deyir: ”Qanuni- əsasinin 15-ci bəndində milli dillərdə təhsil almaq hüququ verilir. Bu qanundur, ya qanun deyil?”

Möhtərəm prezident, bu qanun 45 ildir ki, qanundur və sənin də iştirakınla 45 ildir icra olunmur. Sənin nazir oldugun kabinetdə də bu qanun isra olunmamışdı, sənin nümayəndə oldugun məclisdə də bu məsələyə münasibət bildirilməmişdi.

İndi sən nə deyirsən? Unudulmuş qanunu yada salırsan, ya 45 ildir ki, faşist düşüncəyə görə icra olunmamış milli hüquqlarımıza görə o vəzifəli şəxsləri ittiham edirsən?

Deyirsən ki, “Qanunu icra eləsinlər...” Buyur, indi icra sənin əlindədir, icra et. Sənin bir müctəhidün xatirələrində yazırdı ki, anam mənə türkcə öyrətmişdi. Bazara gedəndə deyirdim ki, “mənə do ta toxme morg ver” (mənə iki dənə yumurta ver). Sən millətə bunu öyrətmək istəyirsən? Bəlkə dünya dillərindən birinə çevrilmiş və müasir digital məkanda, süni intellertdə yeri olan müasir Azərbaycan dilindən danışırsan?

Deyirsən ki, “Qanun icra olunsa, eşikdən sizi belə edirlər, elə edirlər bəhanələrini onların əlindən alarıq.” Ey Avropa görmüş, təhsil almış ziyalı, Sən ana dilini haqq olaraq görürsən, ya bəhanə əldən almaq məqsədi güdürsən? Ana dilində mədrəsə istəyən gənclər hələ də İranın zindanlarındadırlar.

“Türk dilində mədrəsə olmalıdır hər kəsə” şüarını verən xalq istədiyini anlaşıqlı şəkildə ifadə edir. Millətə üsullu ana dilində təhsil lazımdır. Təfəkkürünü, düşüncələrini sahmana salsın, riyakarlıqdan, məcazilikdən çıxsın. Bunu hansı müəllimlərlə edəcəksən, hələ məlum deyil. Lakin əminəm ki, istəsən də edə bilməzsən. Milli dildə təhsil İran mafiyasının qorxulu röyasısır. Pəhləvi rejiminin 1946-cı il dekabr genosidi unudulmayıb. Şahın nökərləri Azərbaycanda çap olunmuş ana dili kitablarını meydanlarda yandıranda bütün İran susdu, o dövrün axundları da bunu ittiahm etmədi. İran İslam Respublikası da hələ ittiham etməyib.

“Orda oturmuş dörd dənə uşagın sözünə görə...”cümləsini də sona çatdıra bilmədin. Çünki davamı təhlükəli gəlirdi, qorxdun və dayandın. Mən sənin o fikrini davam etdirim. “Orada oturmuş dörd dənə uşaga görə millətimizdən, milli kimliyimizdən, dinimizdən və imanımızdan dönməyəcəyik ki, ...” demək istəyirdin, yəqin.

Sənin dediyin o “dörd dənə uşaq...” Pişəvərinin övladlarıdır. Onlar milli kimliyin qüvvəsini, hikmətini və qüdrətini görmüş fədəkar insanlardır və onların nəfəsi daima millətin üzərində olacaq. “Azadlıq, Ədalət və Milli Hökumət” şuarı da qələbəyə qədər öz yerində qalacaq.

**Azərbaycan Demokrat Firqəsi**

**11.08.2024**